*ELMİ İŞ* Beynəlxalq Elmi Jurnal. 2025 / Cild: 19 Sayı: 4 / 39-43 ISSN: 2663-4619
*SCIENTIFIC WORK* International Scientific Journal. 2025 / Volume: 19 Issue: 4 / 39-43 e-ISSN: 2708-986X

DOI: https://doi.org/10.36719/2663-4619/114/39-43

**Brilyant Cəfərli**
AMEA Naxçıvan Bölməsi İncəsənət,
Dil və Ədəbiyyat İnstitutu
dissertant
https://orcid.org/0009-0008-4149-4293
brilliant1cefer@yahoo.com

# Əcəmi Əbubəkr oğlu Naxçıvani memarlığında tətbiq olunan bəzi ornamentlərin türk mifologiyası ilə bağlılığı

## Xülasə

Məqalə Azərbaycan memarlığının dühası Əcəmi Əbubəkr oğlu Naxçıvaninin inşa etdiyi memarlıq abidələri üzərində həkk olunan ornamentlərin türk mifologiyasında mənalarına həsr olunmuşdur. Göstərilir ki, müxtəlif növ ornamentlər qədim türklərin mifik təfəkküründə mühüm rol oynamışdır. Memar Əcəmi Naxçıvani də böyük istedadı və geniş təfəkkürü ilə yaratdığı möhtəşəm əsərlər üzərində türk mifologiyasına məxsus həndəsi və nəbati ornament növlərini həkk etmişdir. Əcəmi abidələri üzərində əks olunan hər bir ornamentin türk mifik təfəkküründə xüsusi yeri və rolu vardır. Türk xalqlarının tarixinin qədimliyi Əcəmi yaradıcılığında gözəllik simvolları sayılan bu ornamentlər vasitəsilə təzahür etmişdir. Əcəmi Naxçıvaninin inşa etdiyi və zəmanəmizəcən gəlib çatmış Yusif Küseyir oğlu və Möminə Xatın türbələri üzərində işlənmiş ornamentlər ən qədim türk tayfaları olan hunların mədəniyyətlərindən gəlmə bəzək elementləridir. Bu abidələr üzərində istifadə edilən sadə həndəsi ornamentlərdən xətlərin, çevrələrin və onlardan yaranan çoxbucaqlıların, çoxguşəli ulduzların türk mifologiyasında müxtəlif mənaları mövcuddur. Sadə həndəsi ornamentlərdən yaranan çoxbucaqlılar birləşərək ən mürəkkəb həndəsi ornamentlər olan şəbəkələri əmələ gətirmişdir. Dahi memarın inşa etdiyi abidələrdə tətbiq edilən bu divar şəbəkələrində türk ruhu hakim mövqedə dayanmışdır. Əcəmi memarlıq abidələri üzərində həndəsi ornamentlərlə yanaşı islimi adlanan nəbati ornamentlər də türk mifik təfəkkürünə aid ornamentlərdəndir.

***Açar sözlər:*** *Əcəmi, memarlıq, abidə, türbə, ornament, mifologiya*

**Brilyant Jafarli**
Institute of Arts, Language and Literature,
Nakhchivan Branch of ANAS
PhD student
https://orcid.org/0009-0008-4149-4293
brilliant1cefer@yahoo.com

# The Relationship of Some Ornaments Which Applied in Ajami Abubakr oglu Nakhchivani`s Architecture With Turkish Mythology

## Abstract

The article is devoted to the meanings of the ornaments carved on the architectural monuments built by the genius of Azerbaijani architecture Ajami Abubakr oglu Nakhchivani, in Turkic mythology. It is shown that, various types of ornaments played an important role in the mythical thinking of the ancient Turks. The architect Ajami Nakhchivani also carved geometric and floral ornaments belonging to Turkic mythology on the magnificent works that he created with his great talent and broad thinking. Each ornament reflected on Ajami's monuments has a special place and role in Turkic mythical thinking. The antiquity of the history of the Turkic peoples is manifested in Ajami's work through these ornaments, which are considered symbols of beauty. The ornaments on the tombs of Yusif Kuseyir oglu and Momina Khatyn, which built by Ajami Nakhchivani and which have survived to our time, are decorative elements from the cultures of the Huns, the most

Creative Commons Attribution-NonCommercial 4.0 International License (CC BY-NC 4.0)

ancient Turkic tribes. The simple geometric ornaments used on these monuments, such as lines, circles, and the polygons formed from them, and polygonal stars, have various meanings in Turkish mythology. Polygons are formed from simple geometric ornaments that combined to form networks, which are the most complex geometric ornaments. The Turkish spirit dominates in these wall networks which applied in the monuments built by the genius architect. Along with geometric ornaments on Ajami`s architectural monuments, floral ornaments called islimi are also ornaments related to Turkish mythical thought.
***Keywords:*** *Ajami, architecture, monuments, tomb, ornament, mythology*

## Giriş

Orta əsr Azərbaycan memarlığının Allahı, Naxçıvan memarlıq məktəbinin banisi, ensiklopedik biliyə malik Əcəmi Əbubəkr oğlu Naxçıvani XII əsrdə yaşamış dahi memardır. Memar Əcəmi yaratdığı məktəbdən bizə miras buraxmış olduğu möhtəşəm sənət əsərləri ilə necə böyük istedada, dərin təfəkkürə, geniş dünyagörüşə sahib olduğunu bariz şəkildə sübut etmişdir. XII əsr Azərbaycan memarlığının ən görkəmli nümayəndəsi Əcəmi Naxçıvani böyük ustalıqla inşa etdiyi memarlıq abidələrinin əzəməti ilə yanaşı, görüntüsünə də xüsusi diqqət yetirmişdir. Bu abidələr üzərində həkk olunan hər bir ornament dəqiq hesaplamalarla, ən zərif şəkildə işlənmişdir. Əcəmi abidələri üzərində əks olunan ornamentlərin böyük əksəriyyəti ən qədim türk mifologiyasına məxsus simvollardır. Dahi memarın əsərlərində istifadə etdiyi həndəsi və nəbati ornamentlərin çoxu türklərin mifik təfəkküründə böyük rol oynayan işarələrdir. Əcəminin layihələri əsasında çoxlu sayda memarlıq tikililəri inşa olunsa da, onlardan yalnızca dördü bizə məlumdur. Bu abidələrdən Atabəylər məscidi (Cümə məscidi) və Qoşa minarəli baştağ dağılıb məhv olmuş olsa da, Yusif Küseyir oğlu və Möminə Xatın türbəsi zəmanəmizə qədər gəlib çatmışdır. Əcəmi Naxçıvani Yusif Küseyir oğlu və Möminə Xatın türbələri üzərində həkk etdiyi ornamentləri ən incə detalına qədər düşünüb işləmişdir. Əcəmi yaradıcılığında abidələr üzərində tətbiq edilən bir çox naxışın qədim türk xalqlarının mifologiyasında müxtəlif mənaları olmuşdur. Gözəllik simvolları olan bu ornamentlərin zərifliklə işlənməsi Əcəmi dühasının böyüklüyündən irəli gəlir. Əcəmi Naxçıvani Şeyxlər başçısı Yusif Küseyir oğlunun şərəfinə ucaltdığı türbə üzərindəki ornamentləri daha da inkişaf etdirərək Renessans qadını Möminə Xatının məzarı üzərində inşa etdiyi məqbərə üzərində mürəkkəb formada tətbiq etmişdir.

**Tədqiqat**

Yuxarıda da qeyd etdiyimiz kimi, Şərq renessansında Azərbaycan memarlığının oyanışını gerçəkləşdirən Əcəmi Naxçıvaninin yaratdığı əsərlər üzərində işlənən həndəsi və nəbati ornamentlərin bir çoxu sırf türk mifologiyası ilə bağlıdır. Əcəmi yaradıcılığında həm həndəsi, həm də nəbati ornamentlər şəbəkə əmələ gətirmişdir ki, bu ornamental şəbəkələr də qədim türklərin dünyagörüşündə müqəddəs ağac sayılan "Həyat ağacı"nı təcəssüm etdirir. Bu şəbəkələrdə türk ruhu hakim mövqedə dayanır (Qiyasi, 1991, s. 85).

Həndəsi ornamentlərin sadədən tutmuş mürəkkəb növlərinə qədər çoxlu sayda formalarının türk mifik təfəkküründə müxtəlif mənaları vardır. Əcəmi Naxçıvaninin inşa etdiyi memarlıq abidələri üzərində sadə həndəsi ornamentlərdən olan xəttin xüsusi yeri və rolu vardır. İki xəttin üfüqi və şaquli birləşməsindən əmələ gələn üstəgəl işarəsi (+) ən qədim türk simvollarındandır. Bu işarə qədim türk mifologiyasında Tenqri (Ulu Tanrı) tərəfindən himayə edilmə, qorunma simvolu hesab edilmişdir. Üstəgəl işarəsi ulu başlanğıcda hərəkət edən atəşi, günəşi simvolizə etmişdir. Bu ornament müstəvinin bərabərləşməsini, sağ, sol, yuxarı və aşağı hissələrin məsafələrinin eyni paylanmasını təmin etmişdir. Əcəminin yaratdığı sənət əsərlərində xətt həm sərbəst işlənmiş, həm də fərqli ornament növləri əmələ gətirmişdir. Bu ornamentlər müxtəlif çoxbucaqlılar, svastikalardır. Əcəmi Naxçıvani memarlıq abidələri üzərində çoxbucaqlılardan çoxguşəli ulduzları, svastikalardan meandr ornamentlərini əmələ gətirmişdir (Kanberova, 2019, s. 976). Ən qədim türklərin simvolu olan svastika üstəgəl (+) və qamma (Q) işarələrindən yaranmışdır. Bu rəmz özə dönməyi, "Tanrıdan gəldik ona qayıdacağıq" prinsipini bildirir. İnsan elmini artıraraq mənəvi olaraq zənginləşdikcə Allaha çatmaq mərhələsindən keçər və ən üst səviyyədə kamilləşərək Tanrıya qovuşar. Svastika həm də çərxi-fələk adlanır və əbədiyyətə gedərək

inkişaf edib formalaşma ideyasını daşıyır. Ölərək Tanrıya qovuşma ideologiyasını əks etdirən bu simvol sonralar təsəvvüf fəlsəfi cərəyanının işarəsi olmuşdur (Parlak, 2007, s. 33).

Əcəmi yaradıcılığında çevrənin xüsusi yeri vardır. Belə ki, həndəsi naxışların ən mürəkkəb forması hesab edilən şəbəkələrin qurulmasının əsasını çevrə həndəsəsi təşkil edir. Müstəvinin çevrə ilə əhatə olunmuş hissəsi olan dairə ornamenti isə qədim türk mifologiyasında əbədiliyin, sonsuzluğun, kamilliyin rəmzi olmuşdur. Ən qədim türklər vəfat etmiş yaxınlarının kurqanları ətrafında dairə şəklində toplaşaraq dəfn mərasimlərini həyata keçirərmişlər. Bu düzülüş dünyanın təşkil olunmasının mərasim modeli olmuşdur (Məmmədov, 2008, s. 109). Anadoluda (Kiçik Asiyada) yaşamış təsəvvüfçü şair Mövlana Cəlaləddin Rumi yolunu gedən mövləvilərin, yəni rəqs edən dərvişlərin (səmazənlərin) eyni yerdə dayanaraq dairə şəklində fırlanmaları, məşhur tayfalar olan bektaşilərin toplu mərasimlərdə əmələ gətirdikləri halqa ilə birlikdə qrup halında öz oxu ətrafında fırlanmaqla göyə yüksəlmələrinə və bu yolla Allaha qovuşacaqlarına inanmaları türk mifologiyasında dairənin əhəmiyyətini bir daha təsdiqləyir (Tarcan, 2003, s. 16). Ulu türk qəbilə birləşmələrində dairə ilə günəşi də təsvir edərlərmiş. Günəş isə odun, atəşin rəmzi olmuşdur. Dairə şəklindəki bu ornamentlər günəşi təsvir etdiyi üçün astral ornamentlərdən hesab olunur. Qədim türk məskəni olan Azərbaycanın Gəmiqaya və Qobustan ərazilərindəki qayalar üzərində günəşi təsvir edən dairə və günəş şüalarını göstərən dairədən ayrılmış xətlər cızılmışdır (Seyidov, 1983, s. 146, 150).

Əcəmi Naxçıvani əsərlərində həkk olunan üçbucaqlı ornamentlər də türk mifik təfəkkürünə görə müxtəlif mənalı ornamentlərdəndir. Ən qədim türklərin inanclarına görə üçbucaqlı forması dağları simvolizə edirmiş. Göyə doğru yüksələn dağlar türk xalqlarının qədim soykökünü bildirmiş və müqəddəs hesab olunmuşdur. Buna görə də, dağlar türk mifoloji təfəkkürünə görə yüksəklik mənasını ifadə etmişdir. Qədim türklər uca zirvələrə inam bəsləmiş və dağlara sitayiş etmişlər. Türk əsatirlərində dağ müqəddəs, təmiz, ilkin və əsas başlanğıc yeri kimi təsvir edilmişdir. Ən qədim insanlar dağlardakı mağaraları özlərinə məskən seçmişlər. Onlar ilkin yaşayış yeri olaraq mağaralarda yaşamışlar. Əski türklərin inanclarına görə əsas başlanğıc dağ, dağ ruhu insana qamlıq (bilicilik), qəhrəmanlıq verirmiş. Qədim Türk xalqları olan Altayların inanışlarına görə uca dağlar vaxtilə onların məğlubedilməz qəhrəmanları olmuşlar. Sonradan həmin igidlər dağa dönmüş, dağ ruhu, dağ sahibi kimi əbədiləşmişlər. Dağlar türklərə uğur, xoşbəxtlik bəxş edərmiş. Qədim türklər olan azərbaycanlılar da vaxtilə dağları xalqı, Vətəni qoruyan qəhrəmanlar, igidlər hesab etmişlər (Seyidov, 1984, s. 14-23). Qədim mifik təfəkkürə görə türk xalqları üzərlərində nəzəri, pis gözləri, xəstəlikləri özlərindən uzaqlaşdırmaqdan ötrü üçbucaqlı formada düzəldilən tumar (tomar) adlı tilsim boyunbağısı gəzdirərmişlər. Qoruyucu funksiyası olan bu əşyalar atəşin simvolu hesab edilmişdir. Anadoluda türklər bəzən də arzularının gerçəkləşməsi üçün üstlərində bu əşyaları daşıyarmışlar. Osmanlı incəsənətində üçbucaqlı şəklində düzülmüş üç dairənin təsvir edildiyi ornament vardır ki, bu ornament çintemani adlanır. Təsvir olunan bu simvol qədim türk dövləti olan Teymurilərin bayrağı üzərində əsas motiv olmuşdur. Üçbucaqlı şəklində çəkilən üç ədəd dairə astral elementlərdən ayı simvolizə etmişdir (Hayırsever, 2020, s. 11).

Əcəminin inşa etdiyi memarlıq abidələri üzərindəki dördbucaqlı ornamentlər və dördguşəli ulduz ornamentləri üfüqün dörd əsas cəhətini, yəni şimalı, cənubu, şərqi və qərbi ifadə edir. Ən qədim türk tayfaları köçəri həyat sürdüklərinə görə özlərinə müxtəlif formalı çadırlar qurmuşlar. Bu tayfa birliklərinin yaşadıqları çadırlar "Yurd" adlanırmış. Qədim türklərin mifik təfəkküründə cənub tərəfdə qurulan çadırlar görülən hər işin xeyirxah, uğurlu bağlanğıcını bildirərmiş. Şimal tərəfdə qurulan çadırlarda hamı tərəfindən hörmət edilən, nüfuzlu şəxslər əyləşdirilərmiş. Sol tərəf, yəni şərq tərəf qadın başlanğıcını bildirdiyinə görə bu tərəfdə qurulan çadırlarda qadınlar əyləşərmiş. Sağ tərəfdə, yəni qərb tərəfdə qurulan çadırlarda isə kişilər əyləşərmiş ki, bu hissə də kişi başlanğıcı sayılırmış (Bünyadov, 2007, s. 367). Dördbucaqlı bolluğu, bərəkəti, məhsuldarlığı simvolizə edir. Bu ornament dünyanın dörd bir yanını, torpağı, həyatın dörd ünsürünü (su, od, hava, torpaq) vəhdət şəklində əks etdirir. Türk mifologiyasına görə, türklər dünyanı dördbucaqlı şəkildə təsəvvür etmişlər.

Dahi Əcəmi əsərlərində həkk olunan altıbucaqlı ornamentlər və onlardan yaranan altıguşəli ulduz ornamentləri aparıcı rol oynamışdır. Bu ornamentlər memarın inşa etdiyi abidələr üzərində geniş istifadə olunmuşdur. Altıbucaqlının ifadə etdiyi altı rəqəmi türk mifologiyasında dünyanın yaranma günlərinin sayını bildirmişdir. Qədim türk mifoloji görüşə görə türk xalqlarından Altayların yaradılış dastanında göstərilmişdir ki, Tanrı dünyanı altı günə yaratmış, yeddinci gün isə yaratmış olduğu əsərini seyr etməyə

bağlamışdır. Buna görə də türklərin dini təfəkkürünə görə Allah kainatı 6 gün içərisində əmələ gətirmişdir. Bu səbəbdəndir ki, altıbucaqlı ornament kainatın bütövlük rəmzi olaraq bilinir (Bünyadov, 2007, s. 368).

Türk mədəniyyətlərində ənənəvi memarlıq strukturlarından olan kurqanlar da altıbucaqlı formada olmuşdur. Əsasən daş və torpaqdan inşa edilən bu məzar formaları ölüm və ölümdən sonrakı həyata inancı simvolizə etmişdir. Qədim türklər belə inanmışlar ki, ölümün ardından ruh yenidən doğulur. Buna görə də altıbucaqlı kurqanlar ölülərin ruhlarının sonsuz həyata keçidini təmsil edir.

Əcəmi dühasının nəticəsi olan abidələrdən Möminə Xatın məqbərəsi üzərində yeddiguşəli ulduzlara da rast gəlinir. Yeddiguşəli ulduzların ifadə etdiyi yeddi rəqəminin qədim türk mifologiyasında maraqlı mənaları vardır. Türklərin əcdadı hesab edilən şumerlərin məşhur qəhrəmanlıq dastanı "Bilqamış dastanı"nda (Hər şeyi bilən adamın dastanında) yazılmışdır ki, dünya tufanı 6 gün 7 gecə baş vermişdir. Yeddinci gün tufan dayanmış və Şumer şəhəri Şuruppakın padşahı Utnapiştinin (Nuhun) gəmisi Nisir dağına ilişib dayanmışdır. Utnapişti bu ərazidə məskən salmış və beləliklə, kainat yaranmışdır. Dastanda yeddi rəqəmi ilə bağlı digər bir fakt isə əbədi həyat axtarışına çıxan Bilqamısın yaşadığı qədim Şumer şəhəri Urukun qala qapılarında yeddi qıfılın olması faktıdır. Ümumiyyətlə, yeddi rəqəmi bir çox mifologiyalarda müqəddəs rəqəm hesab olunmuşdur (Quliyev, 1985, s. 27, 90). Altay türkləri arasında danışılan "Yeddi ulduz" adlı mifdə divlərin sahib olduğu xüsusiyyətlərə malik yeddi dostdan bəhs edilir. Bu əfsanəyə görə, Ülkər ulduzunun döyüşçüləri adlanan yeddi dostdan Caan-Kös müdrik, uzaqgörən, ağıllı imiş. Uzun-qol adlanan ikinci dostun əli çox uzun imiş və hər yerə çatırmış. Üçüncü dost Tındaaçının qulağı çox yaxşı eşidirmiş və hər şeydən xəbəri olurmuş. Bökö adlı dördüncü dost çox güclü və cəld imiş. Beşinci dost olan Tarmaçı cadu edər, insanları aldadar, çox yaxşı hiylələr və tələlər qurarmış. Cügürik adlanan altıncı dost sürətli qaçma qabiliyyətinə malik imiş. Yeddinci dost Caan-Oos isə hər şeyi udar, sindirər, üstünü örtərmiş. Onlar birləşəndə məğlubedilməz igidlər olurmuşlar. Bu ulduzlar Taurus və ya Buğa bürcü də adlanır. Taurus (buğa) qədim dövrlərdə türklərin digər adı olmuşdur.

Əcəmi yaradıcılığında geniş istifadə olunan ornamentlərdən səkkizbucaqlını və səkkizguşəli ulduzu xüsusi qeyd etmək lazımdır. Həm Yusif Küseyir oğlu türbəsi, həm də Möminə Xatın məqbərəsi üzərindəki şəbəkə sistemində tez-tez rast gəlinən bu həndəsi ornamentlər qədim türk xalqlarının mifologiyasında qadın başlanğıcını bildirmişdir. Səkkizbucaqlıdan yaranan səkkizguşəli ulduz türk mifik təfəkküründə günəşlə əlaqələndirilən astral ornamentlərdəndir. Bu ornament Türk günəşi adlandırılır. Günəş şüalarının Yer kürəsinə səkkiz dəqiqədə çatması yerlə göy arasında əlaqəni bildirir. Türk bayraqlarının əsas simvollarından biri səkkizguşəli ulduzdur. Saxaların, yəni Yakut türklərinin mifik təfəkkürünə görə dünyanın səkkiz bucağı olmuşdur (Göksoy, 1992, s. 43). Türklərin tarixi köklərində dərin simvolik mənalar daşıyan səkkizguşəli ulduz ornamenti Venera ulduzu (Zöhrə ulduzu) da adlanır. Altay türk dastanlarında göstərilir ki, Tanrı göyün doqquzuncu qatında, günəş səkkizinci qatında, ay yeddinci qatında, Qütb ulduzu isə beşinci qatında yerləşir. Buna görə də səkkizguşəli ulduz ornamentini günəşlə əlaqələndirirlər (Ögel, 1995, s. 184). Bu ornament kvadrat ilə çevrənin arasında aparılan əməliyyatdan əmələ gəlmişdir. Səkkizguşəli ulduz Şumer mətnlərində də aşkar olunmuşdur. Bu simvol Akkad mifologiyasında ilahə İştarın rəmzi hesab olunmuşdur. İlahə İştar İnannanın, yəni ilk doğulan baş ilahənin təcəssümü kimi göstərilmişdir. İştar sevgi, gözəllik, rifah, mühafizə, məhsuldarlıq ilahəsi hesab edilmişdir. Onun bu gücü, qüdrəti şirin qüvvəsini simvolizə etmişdir. Yenilməz şir İlahə İştarın ilahi gücünün rəmzi olmuşdur (Black, 1992, s. 5).

Əcəminin memarlıq abidələrində ən mühüm yeri tutan ornamentlərdən başlıca olanı onbucaqlı ornamenti və ondan yaranan onguşəli ulduzdur. Onbucaqlının və onguşəli ulduzun ifadə etdiyi on rəqəmi ilə bağlı türklərin müxtəlif mifik inancları mövcuddur. Belə ki, türklərin mənşəyi ilə bağlı bütün əsatirlərdə bildirilmişdir ki, ən qədim türklər öz mənşəyini dişi bir qurddan almışlar. Bu əsatirlərdə yazılmışdır ki, qədim türk xalqlarından hun soyuna məxsus olan Göytürklər Lin dövlətinin ordusu tərəfindən qırğına məruz qalıb məhv edilsələr də, bu hücumdan on yaşlı bir oğlan uşağı sağ buraxılmışdır. Sağ qalan həmin oğlan uşağını dişi bir qurd tapmış, onu bəsləyib, böyütmüş və onunla evlənmişdir. Dişi qurd bu evlilikdən on oğlan uşağı dünyaya gətirmiş və beləliklə, Göytürklərin soyu yenidən artmağa başlamışdır. Buna görə də, mifik təfəkkürə görə türklər "qurddantörəyənlər" olaraq bilinmişlər (Rəcəbov, 1993, s. 14).

Memar Əcəmi Naxçıvani yaradıcılığında çoxbucaqlılardan yaranan çoxguşəli ulduzlar astral ornamentlər hesab olunurlar. Astral ornamentlər göy cisimlərinin təsvirləri olmuşlar. Çoxguşəli ulduz ornamentləri əzəməti və əlçatmazlığı simvolizə etmişdir. Kosmoloji xarakter daşıyan bu simvollar qədim türk mifologiyasında səma tanrısı Tenqrinin rəmzi olaraq bilinmişdir. Ən qədim türklərin dilində Tenqri sözü Tanrı kəlməsinin deyiliş formalarından biri olmuşdur. Qədim türklərin mifik dünyagörüşündə ulduzlar evlərin, çadrların pəncərələri hesab olunmuşdur (Kanberova, 2019, s. 976).

Əcəmi Əbubəkr oğlu Naxçıvaninin inşa etdiyi memarlıq abidələri üzərində həndəsi ornamentlərlə yanaşı nəbati ornamentlər də xüsusi incəliklə işlənmişdir. Dahi memar müxtəlif bitkilərin təsvirlərindən bütöv bir kompozisiya yaratmışdır. Əcəmi Naxçıvani bitkisəl ornamentləri həm tək-tək, həm bə islimibənd formasında tətbiq etmişdir. Qədim türk dillərində islimi (rumi) şiv, yəni, yaşıl, nəm, təzə ağac mənasını verirmiş. Bu da su, meşə kultu ilə bağlı imiş. Türklərin mifik görüşlərində su və yaşıllıq gənclik ilahəsi "Öləng" adlandırılmışdır (Seyidov, 1983, s. 39).

## Nəticə

Apardığımız araşdırmalardan belə nəticəyə gəlirik ki, Əcəmi Əbubəkr oğlu Naxçıvani memarlığında abidələr üzərində tətbiq olunan ornamentlərin hər birinin türk mifologiyasında dərin simvolik mənaları olmuşdur. Bu naxışlar türk xalqlarının tarixinin qədimliyini bariz şəkildə göstərir. Müxtəlif türk tayfa birləşmələrinin təbiəti, həyat fəlsəfəsi, məişəti Əcəmi yaradıcılığında müraciət olunan bu ornamentlərdə əks olunmuşdur.

## Ədəbiyyat

1. Black, J., Green, A. (1992). *Gods, Demons and Symbols of Ancient Mesopotamia: An Illustrated Dictionary.* The British Museum Press.
2. Bünyadov, T. (baş redaktor). (2007). *Azərbaycan etnoqrafiyası: 3 cilddə.* Şərq-Qərb.
3. Göksoy, Y. (1992). Tariximizdə Ağaclar və Yozgat Bölgəsindəki Böyük Ağacların Hekayələri. *Milli folklor,* 2, 43-44.
http://dx.doi.org/10.26449/sssj.1244
https://doi.org/10.48070/erusosbilder.711330.
4. Xeyriyyəçi, B. (2020). Ənənəvi sənətkarlıqda istifadə olunan çintamani motivi və onun keramika sənətinə əks olunması. *Erciyes Universiteti Sosial Elmlər İnstitutu Jurnalı* L, 3, 9-22.
5. Kamberova, G. (2019). Medieval Azerbaijan architectural ornamental compositions and their sources. *International Social Sciences Studies journal,* 5, 969-988.
6. Qiyasi, C. (1991). *Nizami dövrü memarlıq abidələri.* İşıq.
7. Quliyev, A. (redaktor). (1985). *Bilqamıs dastanı (Hər şeyi bilən adamın dastanı).* Gənclik.
8. Məmmədov, F. T. (2008). *Kulturologiya effektivli həyat və fəaliyyətə aparan yol kimi.* Çıraq.
9. Ögel, B. (1995). T*ürk Mifologiyası II.* Atatürk Mədəniyyət, Dil və Tarix Yüksək Qurumları Türk Tarix Qurumunun Nəşrləri.
10. Parlaq, T. (2007). *Tur-An yolunda Aralın sirləri.* Atatürk Universiteti Gözəl Sənətlər Fakültəsi Nəşrləri.
11. Rəcəbov, Ə., Məmmədov, Y. (1993). *Orxon-Yenisey abidələri.* Yazıçı.
12. Seyidov, M. (1983). *Azərbaycan mifik təfəkkürünün qaynaqları.* Yazıçı.
13. Seyidov, M. M. (1984). *Qızıl döyüşçünün taleyi.* Gənclik.
14. Tarcan, H. (2003). *Tarixin başladığı prototürk sivilizasiyası və rəsmi tarixin çöküşü.* Tore Nəşrləri.

Daxil oldu: 24.12.2024
Qəbul edildi: 29.03.2025